# Böyük güclər artıq Azərbaycan reallıqlarını qəbul edirlər

Azərbaycan Prezidentinə olan etimad, hörmət Münxen Təhlükəsizlik Konfransı çərçivəsində bir daha özünü göstərdi. Bir sıra ölkə rəhbərlərinin, rəsmi şəxslərin, beynəlxalq şirkətlərin nümayəndələrinin Prezident İlham Əliyevə müraciəti əsasında keçirilən görüşlər bunu təsdiqlədi.



Ümumilikdə, bu görüşlər həm də müəyyən qlobal güclərin yeni mərhələyə qədəm qoyan Azərbaycanın yaratdığı reallıqları qəbul etdiyini də açıq-aydın ortaya qoydu.

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan bütün beynəlxalq platformalarda hər zaman inamla öz mövqelərini, maraqlarını müdafiə edir. Münxen Təhlükəsizlik Konfransı da bu baxımdan ölkəmizin mövqelərini dünya ictimaiyyətinə çatdırmaq, əsaslandırmaq imkanları verməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Nəzərə almaq lazımdır ki, bu gün əksər beynəlxalq platformalar kifayət qədər ideologiyalaşdırılıb və bu baxımdan Azərbaycan kimi məsələlərə obyektiv yanaşan, iştirakını mahiyyəti üzrə təmin edən ölkələrin sayı çox azdır.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ölkəmizin mövqelərinin tanıdılması baxımından səmərəli fəaliyyət göstərdi: "Konfrans çərçivəsində çoxsaylı görüşlər baş tutdu. Görüşlərdə Azərbaycanın müxtəlif sahələrdə atacağı addımlar haqqında, eyni zamanda ölkəmizlə əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparıldı. Münxen konfransı çərçivəsində Prezident İlham Əliyevlə görüşlərə can atılması Azərbaycanın nüfuzunu bir daha göstərdi. Dövlət başçımızın keçirdiyi görüşlər bir qayda olaraq qarşı tərəflərin xahişi əsasında baş tutdu".

Azərbaycanın tam müstəqil, milli maraqları çərçivəsində davranan azsaylı dövlətlərdən olduğunu vurğulayan E.Mirbəşiroğlu bildirib ki, dünyanın özünü güc mərkəzi adlandıran dairələri müstəqil siyasət yeritməyi bacaran ölkələri həzm edə bilmirlər. Amma Prezident İlham Əliyev ölkəsinin iradəsini, mövqeyini qəbul etdirmək gücündədir və bu da olduqca uğurlu, dəqiq koordinasiya olunmuş, uzlaşdırılmış addımların nəticəsidir. Bu baxımdan nəzərə almaq lazımdır ki, Prezident ölkəmizə qarşı qərəzli mövqelərin sərgilənməsi fonunda yenə də dövlətimizin haqlı mövqelərini qəbul etdirir. Nəticədə Azərbaycanın mövqeyi ilə ayrı-ayrı dövlətlər barışmalı olurlar. Bu da Azərbaycanın beynəlxalq münasibətlər sistemində gücünün göstəricisidir.

Deputat bildirdi ki, Azərbaycan Prezidentinə çox böyük ehtiram və hörmətin olduğu Münxen Təhlükəsizlik Konfransında aydın müşahidə edildi. "Yəni bu konfransın da həddən artıq ideologiyalaşdırıldığını görməkdəydik. Konfransda əsas çağırışlar hansısa mərkəzin geosiyasi maraqları daxilində idi. Amma ölkəmizin lideri öz iştirakını, müzakirələrini məhz birbaşa mahiyyət üzrə həyata keçirdi. Bu da Azərbaycanın iradəsinin, gücünün göstəricisi idi", - deyə o əlavə edib.

Prezident İlham Əliyevin ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşü zamanı çox ciddi məqamlara toxunduğunu deyən deputat dövlət başçısının xüsusi olaraq Azərbaycan-Ermənistan münasibətlərinə diqqət çəkməklə yanaşı, artıq regionda de-fakto sülhün əldə edilməsini və ATƏT-in strukturunda dəyişikliklərin zəruri olduğunu bildirib.

Deputat hesab edir ki, bu, olduqca təsirli diplomatik bir mesaj idi, çünki bundan sonrakı mərhələdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün ATƏT-in görə biləcəyi heç bir iş yoxdur. Prezident həm də ona eyham etdi ki, ATƏT onsuz da uzun illər Minsk qrupu vasitəsilə keçmiş münaqişə vəziyyətinin aradan qaldırılması istiqamətində fəaliyyət göstərsə də, heç bir nəticə ortaya qoymayıb. Yəni bundan sonra ATƏT-dən hansısa bir gözləntimiz yoxdur. Bu mənada Azərbaycan Prezidenti ATƏT-in Minsk qrupunun ləğv olunmasının vaxtının çatdığını vurğuladı, həm də bir daha Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasının iki dövlətin məsələsi olduğunu eşitdirmiş oldu.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev bununla bütövlükdə Cənubi Qafqazı kənar müdaxilələrdən qorumağa çalışdığını da göstərdi: "Bəzi kənar dairələr Cənubi Qafqaz regionunda gərginlik elementlərinin qalmasında və yenilərinin yaranmasında maraqlıdırlar ki, müdaxilə imkanlarına malik olsunlar. Azərbaycan Prezidenti isə öz iradəsi ilə bunun qarşısını almağa çalışır. Eyni sözləri dövlət başçısının Entoni Blinkenlə görüşü zamanı da sərgilədiyi mövqe haqqında səsləndirmək mümkündür. Dövlətimizin başçısı regiondakı vəziyyət ətrafında danışarkən vurğuladı ki, Azərbaycanla Ermənistan arasında müzakirələr getməkdədir və Vaşinqtonla Bakı arasındakı münasibətlər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasından heç bir halda asılı ola bilməz. Bu da Amerikaya çox ciddi bir mesaj idi. ABŞ ölkəmizlə bağlı mövqelərini formalaşdırarkən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması amilindən çıxış etməməlidir".

E.Mirbəşiroğlu hesab edir ki, Prezident İlham Əliyevin belə mövqelər sərgiləməsi təkcə Azərbaycanın maraqları kontekstində deyil, ümumiyyətlə, qlobal vəziyyətə təsir edəcək bir yanaşmadır. Çünki ABŞ hər hansı ölkəyə münasibətini birbaşa özünə aid olmadan məsələlər üzərində formalaşdırmağa çalışır. Bu cür yanaşma da neqativ nəticələrə gətirib çıxarır.

Onun fikrincə, İlham Əliyev Münxendə növbəti dəfə tam müstəqil ölkəmizin olduqca güclü siyasi iradəyə və strateji baxışlara sahib olan liderinin performansını nümayiş etdirdi. Dövlət başçısının konfrans çərçivəsindəki davranışları digər iştirakçılar üçün də olduqca dəyərli bir nümunə oldu.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.11.